# XAL

Şəhərin mərkəzində yerləşən sərgi salonunda gənc rəssamların əsərləri nümayiş olunurdu. Axın-axın cavanlar sərgiyə baxmağa gəlirdilər. Divar boyu asılan yağlı boya ilə çəkilmiş əsərlərin qarşısında dinməz qalanlar da olurdu. Qurban da sərgiyə gələnlər içərisində idi. Uşaqlıqdan rəssam olmaq həvəsi ilə yaşayan Qurbana qisməti düşmədi. Univeresiteti bitirib dil-ədəbiyyat müəllimi oldu. Bununla da kifayətlənməyib, ara - sıra şeirlər yazdığı üçün redaksiyada şeir şöbəsində işlədi. Tale insanı yarpaq kimi fırlayır, istəmədiyi bir yerə salır bəzən...

Divardan asılan bir əsər çoxlarının ürəyincə idi. Salxım söyüdlər altındakı bulaq başında görüşə gələn iki gənc bir-birini elə tamamlayırdı ki, elə bil, Allah bunları bir-biri üçün yaratmışdı. Qurban diqqətini əsərdəki qıza yetirən zaman özü də bilmədən qarşısından keçən qızla toqquşdu. Qız dönüb ona baxdı. Nifrət dolu baxışlar Qurbanı məftun etdi. Sanki tabloda əks olunan bu qızın özü idi. Boy-buxunu, incə beli, çiynindən aşağı tökülən saçları çöhrəsinə daha da yaraşıq verirdi. Qara qaşları, alma gözləri, dodaqları, elə bil, rəssam tərəfindən yaradılmışdı. Dinməzcə xeyli belə dayandılar.

- Üzr istəyirəm, sizi incitdimsə, məni bağışlayın, - deyə, Qurban qeyri-ixtiyari qızın qoluna toxundu.

- Allah bağışlasın - deyən qızın da sifətində oxunan narazılıq yox oldu. Bu qızın adı Leyla idi. Leyla bir neçə aylığından uşaq evinə atılmışdı. Orada dil açmış, addımlamışdı. Məktəb yaşlarından rəsm çəkməyə həvəs göstərirdi. Uşaq evində uşaqların əl işlərindən tərtib olunan sərgidə onun ilk işləri də yer almışdı. Böyüyəndə rəfiqələri ilə kirayə ev tutub, fabrikdə işləyirdi. Leyla necə olursa-olsun rəssam olmaq istəyirdi. Salonda təsadüfən bu oğlanla toquşması onun həyatını büsbütün dəyişdi.

Onlar birlikdə sərgi salonundan çıxıb, dənizkənarı parka doğru addımladılar. Yolboyu adlarını bir-birinə "hədiyyə" etdilər. Qurban adamların sıx yerində qızın qolundan tutur, özünə doğru sıxırdı. Səhildə oturub xeyli söhbət etdilər. Hər kəs öz həyatını danışdı. Ağacların arasından əlində fotoaparat olan bir kişi: - Siz bir-birinizə necə də yaraşırsınız, icazə verin şəkilinizi çəkim. On-on beş dəqiqəyə hazır olacaq, - dedi. Onlar heç yerə tələsmirdilər. Şəkil bir saata da hazır olsa, gözləyəcəkdilər. Bu arada yanlarından dondurma satan keçəndə, Qurban Leylanı dondurmaya qonaq etdi. Bir az keçmiş foto da gəlib çıxdı. İki ədəd idi. Birini Qurban cibinə qoydu, o birini də Leylaya verdi: – Qoy bu şəkillər bizim taleyimizin bünövrəsi olsun. Mən səni çox sevdim, könlümə yatdın. Sən də məni sevməyə razısanmı?

– Əlbəttə razıyam, - deyə Leyla cavab verdi.

Qurban qızı yaşadığı ünvana qədər ötürdü ki, yerini-yurdunu öyrənsin.

Onlar hər gün görüşürdülər. Qurban üçün gecə-gündüz gözləri önündən xəyalı getməyən Leylasız yaşamaq çətin idi. Daha bir ay arxada qalmışdı.

Qurban öz planlarını ata-anasına danışanda anası dedi: – Namizədin varmı, ay oğul?

– Var, ana, var.

Çıxarıb Leyla ilə birlikdə çəkilən fotosunu anasına göstərdi.

– Gözəl qızdır, hardandır? Valideyinləri varmı? - deyə anası xəbər aldı.

– Valideyinləri yoxdur.

– Necə yoxdur, valideyinsiz də adam olar?

– Olub, ana, o, uşaq evində böyüyüb.

Bu sözü eşidən ana:

– Bircə o qalmışdı, oğlumu yetimxanada böyümüş birinə qurban verim!

Qurban təqribən belə olacağını gözləyirdi. Anası da qabağından qalanı yeyən deyildi. Odur ki, fikrinin qəti olduğunu bildirdi, atasına da söylədi. Atası oğlunun tərəfini saxladı. Bilirdi ki, Qurban arvadının əvvəlki ərindəndir. Özləri bilər. Mənə nə var. Elə desəm, anam öləcək, belə desəm, atam. Madam ki, Qurban onunla bir ata kimi məsləhətləşir razılıq verdi.

Yetimxana söhbəti kişini əməlli-başlı düşüncələrə qərq etdi. Səlman kişi cavanlığında elədiyi səhvi gözləri önünə gətirdi. Öz arvadını, qızını buraxıb, özgə qadına uyan zaman arvadı öldüyündən bacıları götürüb uşağı yetimxanaya vermişdilər.

– Yazıq balam, görəsən hardadır? Anası yazıq öldü. Atası da məsuliyyətsiz olaraq kef axtardı. Allah özü məni bağışlasın...

Anasının narazı olması Qurbanı inadından çəkindirə bilmədi. Çünki, o, Leylaya kişi sözü vermişdi. Qurban üçün toy-filan da vacib deyildi.

Günün birində qızı evlərinə gətirəndə, Leyla soruşdu:

– Olmaya, məni qaçırmısan?

– Hə, hə, özü də ömürlük!

Ata-ana Leylanı görəndə dilləri bağlandı. Qız o qədər gözəl idi ki, aya deyirdi sən çıxma mən çıxım. Səlmanın qanı ilk gündən qıza qaynadı. Amma arvadı: – Toydan sonra sənin başına bir oyun açım ki, oğlumu qoyub qaçasan - deyə düşündü.

Dəf-zurna vurulmasa da, yığıncaq keçirildi. Yaxın adamlar, dostlar iştirak etdilər.

Hər kəs Qurbanın seçiminə hörmət etdiyini söylədi.

Bəli, su ki, töküldü cürdəyə, oldu içməli. Gözəl Leyla özünün ailəsi, evi olduğu günə şükür edib, arxada qalan həyatı ilə vidalaşdı.

Gəlin Səlman kişinin ürəyinə elə yatmışdı ki, onu öz balası kimi sevirdi. Amma, arvadı hikkəsini yerə qoymayıb, gəlinlə siçan-pişik oyunu oynayırdı. Min bəhanə gətirir, qızın gördüyü hər işə qulp qoyur, bir əmma axtarırdı. Leylanın da üzü "bərk" idi. Ondan da əzazil adamlar, pisliklər görmüş, bir qarnı ac, bir qarnı tox böyümüşdü. İndi də qaynanasının qəddar olmasından incimir, olanları ərinə xəbər vermirdi. Qaynana da elə bil gəlinlə göz yağı yemişdi.

Leylanın bir ildən sonra bir oğlu oldu. Həm Qurban, həm də Səlman çox sevinirdi. Amma qaynananın hələ də ürəyi yumşalmırdı. Ürəyində bu yetim, kimsəsiz qıza nifrəti sönmürdü ki, sönmürdü. İki il də keçdi. Evdə ikinci uşağın, gözəl bir qızın səsi gəldi. Qaynana mindiyi atdan düşmür, münasibəti yumşalmırdı.

Arvadının qəddar olması Səlmanı üzürdü. Cavanlığında onunla qurduğu həyata nifrət edərək, özünü danladı.

Bir dəfə Səlman oğlan nəvəsini qucağında saxlayan zaman Leyla qolsuz xalatda uşaq qucağında onların yanına gəldi. Bu zaman Səlman Leylanın qolunda - dirsəyinin altında olan xalı gördü. Tez oğul nəvəsinin qolunu açıb baxdı. Xal onda da vardı. Səlman bir bəhanə ilə qız uşağını gəlindən aldı. Oxşadı, yavaş-yavaş köynəyinin qolunu geri çəkdi. Qızın da qolunda xal vardı. Xallar Səlmanın ürəyini yerindən tərpətdi. Kəlmə belə kəsmədən evdən çıxdı. Sakit bir yerə çəkilib oturdu. Düşüncələr onu alıb, keçmişə, ailəsi ilə xoşbəxt yaşadığı günlərə apardı. O xaldan ilk sevgilisi Nigarda da vardı. Onun dünyaya gətirdiyi qızın da həmçinin.

Səlman dağılan tifağına ağlayır, etdiyi səhvi özünə bağışlamırdı. Bir anlıq istədi Nigarın bacılarını tapsın. Uşağı hara verdiklərini öyrənsin. Amma nə faydası? Onlar boyunlarından atacaq, düzünü deməyəcəkdilər. Onlar Səlmanı qarğamışdılar: "Səni görək, dünyanın ən bədbəxti olasan. Bala üzünə həsrət qalasan". Qarğışlarsa nəticəsini göstərmişdi.

Fəqət indi Səlman illərlə ayrı düşdüyü qızını tapmışdı. Özünə söz verdi ki, ögey oğlu olsa belə, Qurbanla Leylanın xoşbəxt həyatını zəhərə döndərənə qarşı amansız olacaq, neçə ki, nəfəsi gəlir, onları qoruyacaq.

***Cəmilə ÇİÇƏK***

**Kredo.- 2022- ci il.- 24 avqust.- S. 12.**